**UOT 32**

# MİLLİ İNKİŞAF SİSTEMİNDƏ SOSİAL EKOLOGİYA PROBLEMİ

**Günel Məlikli**
Siyasi elmlər üzrə fəlsəfə doktoru,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
gunelmelikli@yahoo.com
DOİ: 10.30546/sw.2022.2.39.119

**Xülasə.** Təbiəti mühafizə problemləri çoxsahəli olmaqla ümumi planetar, ümumbəşəri və eyni zamanda yerli əhəmiyyətə malikdir. Ətraf mühiti mühafizənin tələbləri Azərbaycan Respublikasının Konstitusiyasında geniş şəkildə qeyd olunmuşdur. Müasir dövrdə ekoloji problemlərin kəskinliyi ilə əlaqədar olaraq ekologiya bir sıra istiqamətlərdə xüsusi aktuallıq kəsb etməyə başlamışdır. Dünya ölkələrinin ictimai quruluşundan asılı olmayaraq müasir ekoloji böhrana məruz qalmaları onu göstərir ki, indi bütün ölkələr milli və sinfi ayrı-seçkilik salmadan birləşməli, ətraf mühiti mühafizə etməkdə birgə səy göstərməlidirlər.

**Açar sözlər:** sosial ekologiya, ətraf mühit, ekoloji problem, ekoloji tarazlıq, təbii ehtiyatlar

## GİRİŞ

Ekologiya insanla təbiətin münasibətlərinin elmi və praktiki problemlərinin məcmusudur. Bəşəriyyətin müasir yaşayışını ekologiyasız təsəvvür etmək mümkün deyil. Təəssüflə qeyd etməliyik ki, xüsusən XX əsrdən etibarən insanların antropogen və texnogen fəaliyyətinin təsiri nəticəsində ətraf mühitin, onun amillərinin, təbii sərvətlərin, biosferin, ekosistemlərin, flora və faunanın normal ahənginin pozulması baş vermiş və beləliklə, ciddi ekoloji disbalans yaranmışdır. Müharibələr, kosmosun öyrənilməsi, təbiətə sənaye və nəqliyyat tullantılarının atılması, bir çox sahələrdə zəhərli kimyəvi maddələrin istifadəsi atmosferi, hidrosferi və litosferi çirkləndirməklə ekoloji tarazlığın ritmini pozmuşdur.

Müasir dövrdə ekoloji problemlərin kəskinliyi ilə əlaqədar olaraq ekologiya bir sıra istiqamətlərdə xüsusi aktuallıq kəsb etməyə başlamışdır. Bu sırada sosial ekologiyanın ötən əsrdən etibarən yaranıb inkişaf etməsi diqqəti cəlb edir. Təbiət və cəmiyyətin qarşılıqlı münasibəti elmin mühüm problemlərindən olmuşdur. Qlobal problemlərin təsnifatında mühüm yeri cəmiyyət, insan və təbiətin qarşlıqlı təsiri olan ekoloji problem tutur. İnsan özünü təbiətdən ayırır, lakin o, təbiətin ayrılmaz hissəsi olaraq qalır.

Təbiət-cəmiyyət həyat təminatlı ekoloji funksiya yerinə yetirdiyindən cəmiyyətin sistemi inkişafın təbii qanunlarına tabe olur. Hətta Demokrit və Hippokrat insan cəmiyyətinin mühitdən asılı olması haqqında fiikirlər irəli sürərək, əhalinin həyat tərzini iqlimdən, sudan, bitkidən asılı hesab etmişlər.

Antik fəlsəfəyə görə, insan təbiətin bir hissəsidir. Platonun konsepsiyasına görə, bütün təbiət Allah tərəfindən idarə olunur. Yunan coğrafiyaçısı Strabon “Coğrafiya” əsərində təbii şəraitin əhəmiyyətini yüksək qiymətləndirərək, ölkənin idarə edilməsində coğrafi şəraitin nəzərə alınmasını söyləyirdi. Heraklit insan təfəkkürünə yüksək qiymət verərək, insanın təbiətə qulaq asaraq onunla yaxşı yola getməsinin vacib olduğu fikrini irəli sürürdü. Beləliklə, cəmiyyətin təbiətə qlobal miqyaslı təsiri bir sıra elmlərin birləşməsi nəticəsində sosial ekologiyanın yaranmasına imkan yaratdı.

Klassik insan ekologiyası sahəsinin görkəmli nümayəndəsi Raderik Mak Kenzel ekologiyanı ‘‘insanların ərazi və zaman münasibətləri haqqında elm’’ adlandırmışdı. Beləliklə, sosial ekologiyanın inkişafı Birinci Dünya müharibəsindən sonra başlamış, 60-cı illərdə inkişaf etmişdir. 1966-cı ildə keçirilən Sosioloqların Ümumdünya konqresindən sonra bu proses daha da inkişaf etmiş, 1970-ci ildə Varnada keçirilən sosioloqların konqresində sosial ekologiya problemləri üzrə Sosioloqların Ümumdünya Birliyinin tədqiqat komitəsinin yaradılmasına imkan vermişdir. Dünya ölkələrinin ictimai quruluşundan asılı olmayaraq müasir ekoloji böhrana məruz qalmaları onu göstərir ki, indi bütün ölkələr milli və sinfi ayrı-seçkilik salmadan birləşməli, ətraf mühiti mühafizə etməkdə birgə səy göstərməlidirlər.

Təbiəti mühafizə problemləri çoxsahəli olmaqla ümumi planetar, ümumbəşəri və eyni zamanda yerli əhəmiyyətə malikdir. Ətraf mühiti mühafizənin tələbləri Azərbaycan Respublikasının Konstitusiyasında geniş şəkildə qeyd olunmuşdur. Ölkənin əsas qanununda Konstitusiya praktikasında dövlətin

ətraf mühitin qorunmasında məsul olduğu göstərilmişdir. Ətraf mühitin dəyişdirilməsini öyrənən və onun vəziyyətinə nəzarət edən elektron sistemlərin yaradılması ona görə vacibdir ki, insanın təsərrüfat fəaliyyətinin təsiri altında gedən dəyişiklikləri izləmək mümkündür. İctimaiyyət bilməlidir ki, ətraf mühitin mühafizəsində onun nəinki birbaşa, hətta dolayı fəaliyyəti də ətraf mühitin mühafizəsində kompleks tədbirlərlə öyrənilməlidir. Ətraf mühiti mühafizə tədbirləri planlı və ardıcıllıqla, dövlət səviyyəsində həyata keçirilir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1974-1975-ci illərdə təbiətin mühafizəsi məsələlərinə diqqət edilmiş, havaya zərərli maddələrin buraxılmasının məhdudlaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir [4 s 12].

Qərb tədqiqatçılarının hesab etdiyi kimi, “müasir ekoloji problemlər əvvəllər olduğu kimi, su, hava və torpağın çirklənməsi problemlərindən də ibarətdir. Lakin müasir ekoloji problemlər daxili problemlərdən tutmuş qlobal miqyaslı problemlərə qədərdir.

**Ətraf mühitin keyfiyyətinə təsir edən əsas faktorlar:**

- Su ehtiyatlarının məhdudluğu.
- Su ehtiyatlarının çirklənməsi.
- Transsərhəd çayların problemləri.
- Xəzər dənizinin ekoloji mühitinə artan təhdidlər.
- Xəzər dənizinin səviyyə tərəddüdləri.
- Biomüxtəlifliyin seyrəkləşməsi.
- Meşə ehtiyatlarının azalması.
- Atmosfer havasının çirklənməsi.
- İqlim dəyişmələri.
- Metsamor AES-in fəaliyyəti.
- İqlim dəyişmələrinin təsiri.
- Torpaq ehiyatlarının münbitliyinin itirilməsi.
- Tullantıların qeyri-səmərəli idarə olunması.
- Təbii sərvətlərdən qeyri-rasional istifadə.
- Ekoloji mədəniyyət və təhsilin aşağı səviyyədə olması.

1988-93-cü illər ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 1,7 milyon hektar ərazisi işğal edilmişdir. İşğala məruz qalmış yaşayış məntəqələri ermənilər tərəfindən qarət edilmiş, evlər dağıdılmış, su, elektrik, qaz və digər kommunikasiya xətləri isə tamamilə sıradan çıxarılmışdır. İşğal olunmuş ərazilərin təbii sərvətlərinə və ətraf mühitə vurulmuş ziyan regionda ekoloji tarazlığın pozulmasına səbəb olmuşdur. Düşmən tərəfindən istifadəsi və tətbiqi qadağan edilmiş müxtəlif növ döyüş sursatlarının dinc əhaliyə qarşı istifadəsi nəticəsində xeyli insan tələfatı olmuş və ətraf mühit fiziki-kimyəvi çirklənməyə məruz qalmışdır. İstifadəsi və tətbiqi qadağan edilmiş müxtəlif növ döyüş sursatlarından və raket zərbələrindən dinc əhaliyə qarşı istifadə edilməsi soyqırım, ətraf mühitə qarşı isə ekoloji terror aktıdır. İşğala məruz qalmış yaşayış mətəqələri ermənilər tərəfindən qarət edilmiş, evlər dağıdılmış, su, elektrik, qaz və digər kommunikasiya xətləri isə tamamilə sıradan çıxarılmışdır. 1993-2003-cü illərdə Heydər Əliyev tərəfindən ətraf mühitin mühafizəsi sahəsində mühüm qanunlar qəbul edilmişdir. 2010-cu il isə respublikamızda Prezident İlham Əliyev tərəfindən “Ekologiya ili” elan edilmişdir.

İnsan əslində təbiətlə daimi mübadilə prosesində olmağa məcburdur. Lakin prosesin optimallaşdırılmasına hazırda ciddi tələbat yaranmışdır. Bütün dünya təcrübəsi təsdiq edir ki, milli rifah ekologiya sahəsində ciddi işlər aparılmadan mümkün deyildir. Təbii mühit insan cəmiyyətinin əsasını təşkil etdiyi üçün insan nəsli bu əsası möhkəm qoruyub saxlamağı bacarmalıdır. Müasir dövrdə təbii böhran getdikcə dərinləşir. Su ehtiyatları ilə bağlı hal -hazırda aşağıdakı problemlər mövcuddur:

- Su ehtiyatlarının məhdud olması.
- Yerüstü su ehtiyatlarının 70%-nin transsərhəd çaylar hesabına formalaşması.
- Transsərhəd su ehtiyatlarının çirklənməsi.
- Daxili çayların ölkə ərazisində qeyri-bərabər paylanması.
- Ölkədə su ehtiyatlarının idarə olunmasında hövzə prinsipinin tətbiq olunmaması.
- Su ehtiyatları barədə məlumatların əlaqələndirilməsində çətinliklər.

• Çay hövzələrinin idarə olunmasında problemlər və çatışmazlıqlar.

Müasir dövrdə ekoloji durumu və sosial-iqtisadi vəziyyəti nəzərə alaraq respublikamızın ekoloji siyasətinin aşağıdakı üç əsas istiqamətini müəyyənləşdirmək olar:

- ekoloji təhlükəsizliyin təmin olunmasını əsas götürərək, ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin tənzimlənməsi məqsədilə davamlı inkişaf prinsipləri üzrə mütərəqqi üsulların tətbiq edilməsi;

- indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə etmək, alternativ, qeyri-ənənəvi metodlar vasitəsilə tükənməyən enerji mənbələrindən yararlanmaq və enerji effektivliyinə nail olunması;

- qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi, həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi, eləcə də milli potensial imkanlardan istifadə etməklə həyata keçirilməsinin təmin edilməsi. [3]

Məlumdur ki, “ətraf mühitlə bağlı olan təbii fəlakətlər və insanların fəaliyyəti nəticəsində baş verən texnogen qəzalar əhalinin sağlamlığına, rifahına və əmlakına ziyan yetirməklə daxili təhlükəsizliyə zərər vura bilər. Bu mənada onlar ümumi təhlükəsizlik kontekstində nəzərdən keçirilməlidir” [1 s 36] Ətraf Mühitin Mühafizəsi və İnkişafı Komissiyasının fikrincə, davamlı inkişaf dedikdə gələcək nəsillərin tələbatlarının ödənilməsi imkanlarını azaltmadan, indiki nəslin tələbatının normal ödənilməsi başa düşülür. Davamlı inkişaf anlayışına ilk yanaşmalardan biri olan bu fikir əksər tədqiqatçılar tərəfindən qəbul edilmişdir**.**

Qərb tədqiqatçılarının hesab etdiyi kimi, “müasir ekoloji problemlər, əvvəllər olduğu kimi, su, hava və torpağın çirklənməsi problemlərindən ibarətdir. Lakin müasir ekoloji problemlər daxili problemlərdən tutmuş qlobal miqyaslı problemlərə qədərdir. Müasir ekoloji məsələlər həmçinin qlobal istiləşmə, daşqın, su çatışmazlığı və insan fəaliyyəti ilə bağlı olan daha dəhşətli təbii təhlükələr kimi qlobal ekoloji riskləri də özüdnə ehtiva edir. Bu narahatlıqları önə çəkmək və cavab vermək üçün istifadə olunan alətlər, 1970 və 1980-ci illərdə texnoloji, mühəndislik və hökumət subsidiyaları ilə dəstəklənən rəsmi federal nəzarətdən günümüzün qlobal bir yanaşmasına qədər inkişaf etmişdir. Təşkilatların fəaliyyət göstərdiyi və ictimaiyyətlə ünsiyyət qurduqları zaman ətraf mühitin sağlamlığının qorunması halları mühüm amilə çevrilmişdir”[2 s 397].

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28 sentyabr 2006-cı ildə “Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks tədbirlər planı”nın təsdiq edilməsi haqqında xüsusi sərəncam imzalamışdır. Sərəncamda ölkənin ümumi inkişafının ətraf mühitin mühafizəsi və zənginləşdirilməsi, insanların sağlam mühitdə yaşaması və məhsuldar əməklə məşğul olması, təbii sərvətlərdən rasional istifadə etməsi ilə bağlılığına xüsusi önəm verilir.

Bu o deməkdir ki, hazırda ətraf mühitin keyfiyyəti real tələbat kimi dərk olunmalı,həmin mühitin sağlamlaşdırılması mühüm prinsip kimi insan fəaliyyətinin bütün sahələrinə dərindən nüfuz etməlidir. Deməli, həyat keyfiyyəti ətraf mühitin keyfiyyəti anlayışını da ehtiva edir. Sosial ekologiyanın əsas keyfiyyət göstəriciləri sırasında əmək mühitinin özünəməxsus rolu ümumən etiraf olunur. Ekologiya və Təbii Sərvətlər Nazirliyi məqsədyönlü şəkildə respublikada təbiətin mühafizəsi üzrə tədbirləri həyata keçirir.

Ətraf mühitin mühafizəsi sahəsində qarşıda duran əsas vəzifələrdən biri də Abşeron yarımadasının antropogen təsirlər nəticəsində çirklənmiş ərazilərinin təmizlənməsidir. Bu sahədə Azərbaycan Respublikası Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti xüsusi olaraq vurğulanmalıdır. Beynəlxalq forumlarda Azərbaycan Respublikası Birinci vitse-prezidenti Mehriban Əliyeva və IDEA İctimai Birliyinin sədri Leyla Əliyeva ölkəmizdə və regionda ekoloji problemlərin aradan qaldırılması, biomüxtəlifliyin mühafizəsi, davamlı inkişafın təşviqi, cəmiyyətimizdə heyvanlara qarşı humanist münasibətin təbliği, gənclərin ətraf mühitlə bağlı biliklərinin dərinləşdirilməsi və sair sahələrdə əldə olunmuş nailiyyətlərdən də bəhs edərək dünya ictimaiyyətinin bu cür problemlərin həllinə diqqətini cəlb edir.

Qeyd etmək lazımdır ki, təbii ehtiyatlar tükənəndir və təbii ehtiyatların səmərəli və effektiv istifadə edilməsi məqsədəuyğundur. Əks halda istər enerji, istərsə da xammal sahəsində gec-tez müəyyən çətinliklər ortaya çıxır. Bu çətinliklərdən biri ondan ibarətdir ki, hazırda inkişaf etməkdə olan ölkələrdə enerjiyə olan tələbat daha çoxdur. Bu problemin aradan qaldırılması üçün enerji istehsalını alternativ

enerji mənbələri hesabına artırmaq olar. Başqa bir çətinlik isə bəzi ölkələrin texnoloji cəhətdən təkmil olmamasıdır. Prezidentin 2007-ci ildə imzaladığı “Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar bəzi tədbirlər haqqında”adlı Sərəncamı Kür və Araz çaylarının suyundan istifadə edən yaşayış məntəqələrinin ekoloji cəhətdən təmiz su təminatı istiqamətində görülən işlərdəndir.

Həmçinin, əhalinin ekoloji tələblərə cavab verən keyfiyyətli içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən keçirilmiş bir sıra tədbirlər nəticəsində onlarca yaşayış məntəqələrində modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır ki, bu da insanların sağlamlığının qorunmasına, eləcə də böyrək çatışmazlığı xəstəliklərinin baş verməsinin qarşısının alınmasına imkan verəcəkdir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası. Bakı: ‘‘Qanun’’, 2012.
2. Greenberg . Michael R.. Contemporary Environmental and Occupational Health Issues: More Breadth and Depth // Am J Public Health. 2007 March; 97(3).
3. https://files.preslib.az/projects/azereco/az/eco_m1_2.pdf// Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin prezident kitabxanası, Ekoloji siyasətin əsas istiqamətləri.
4. Xəlilov T.A., Zeynalova M.Ə. Qlobal ekoloji problemlər (Ali məktəblər üçün dərs vəsaiti). Bakı: “MBM”, 2013, 212 səh.
5. Məlikli G. Azərbaycan Respublikasının dövlət təhlükəsizliyində sosial siyasətin yeri və rolu. Bakı: İndiqo, 2018. 218 s.
6. Rəcəbli H. Azərbaycan.- 2010.- 3 iyul.- Sosial ekologiya: reallıqlar və yeni istiqamətlər//

## ПРОБЛЕМА СОЦИАЛЬНОЙ ЭКОЛОГИИ В СИСТЕМЕ НАЦИОНАЛЬНОГО РАЗВИТИЯ

**Гюнель Меликли**

**Резюме.** Проблемы охраны природы многогранны и имеют глобальное, универсальное и локальное значение. Требования по охране окружающей среды в значительной степени закреплены в Конституции Азербайджанской Республики. В наше время из-за остроты экологических проблем экология стала особенно актуальной в ряде сфер. Тот факт, что страны мира, независимо от их социальной структуры, сталкиваются с современным экологическим кризисом показывает, что теперь все страны должны объединиться без дискриминации по признаку национальности и класса, и вместе работать над защитой окружающей среды

**Ключевые слова**: социальная экология, окружающая среда, экологическая проблема, экологический баланс, природные ресурсы

## THE PROBLEM OF SOCIAL ECOLOGY IN THE NATIONAL DEVELOPMENT SYSTEM

**Gunel Melikli**

**Abstract.** The problems of nature protection are multifaceted and have a global, universal and local significance. The requirements for the protection of the environment are enshrined in the Constitution of the Republic of Azerbaijan. In our time, due to the sharpness of environmental problems, ecology has become especially relevant in a number of areas. The fact that the countries of the world, independent of their social structure, face a modern ecological crisis, shows that now all countries should unite without discrimination on the basis of nationality and class together.

**Keywords:** social ecology, environment, ecological problem, ecological balance, natural resources